AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

NILUFƏR BƏHLUL QIZI MƏMMƏDZADƏ

# HERMAN HESSENIN YARADICILIĞINDA INSAN KONSEPSIYASI (“YALQUZAQ” VƏ “MUNCUQ OYUNU” ROMANLARI ƏSASINDA)

5718.01 – Dünya ədəbiyyatı (alman ədəbiyyatı)

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2014

İş Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya üzrə elmlər doktoru, professor<br>Qorxmaz Həsi oğlu Quliyev |
| Rəsmi opponentlər: | filologiya üzrə elmlər doktoru, professor<br>Əsgər Məmməd oğlu Zeynalov |
| | filologiya üzrə fəlsəfə doktoru,<br>Məlahət Nazim qızı Osmanova |
| Aparıcı təşkilat: | Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrası |

Müdafiə ___28/11____ 2014-cü il saat ___ Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____________________________ 2014-cü ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə fəlsəfə doktoru,
dosent Sevda Davud qızı Vahabova

## TƏDQIQATIN ÜMUMI SƏCIYYƏSI

*Mövzunun aktuallığı.* İnsan problemi bədii söz sənətinin daim öyrənilən, fərqli estetik baxışlara görə təhlil olunan başlıca mövzusudur. Məlum həqiqətdir ki, XX əsr bəşər tarixində insanın zaman-zaman ən ağır mənəvi- ruhi sarsıntılara məruz qaldığı dövr olmuşdur. Son yüzilliyin bütün görkəmli sənətkarları dünyagörüş mövqelərindən, bədii-estetik baxışlarından asılı olaraq bu sarsıntıları müxtəlif görmə bucaqlarından inikas etmişlər.Məhz buna görə də bu və ya digər sənətkarın əsərində öz əksini tapmış insan konsepsiyası şox zaman onun yaradıcılığını adekvat şəkildə şərh etmək üçün açar rolunu oynayır. Yeni ədəbiyyat daxilən didilib-parçalanan, narahat və yalqız insan obrazını özünün əsas predmetinə çevirdi. Hələ XX əsrin əvvəllərində Z.Freydin insanın bir fərd kimi təşəkkülündə, onun toplumla ziddiyyətli əlaqələrinin formalaşmasında təhtəlşüurun rolu ilə bağlı təlimi bədii söz ustalarına insanın daxili aləminə nüfuz etməyə, onun psixikasının qaranlıq tərəflərini açıqlamağa sövq etdi. Lakin bu heç də xarici aləmdə - cəmiyyətdə, dünyada baş verən hadisələrin bədii təsvirdən kənarda qalması yaxud arxa plana keçməsi demək deyildi; XX əsrin ən böyük sənətkarları insanın daxili aləmində baş verən proseslərin dünyada baş verən hadisələrlə dialektik vəhdətdə olmasını yüksək ustalıqla təsvir etməyi bacarırdılar.

Son dövrlər dünyada baş verən hadisələr – iqtisadi böhranlar, işsizlik, mahiyyəti etibarilə antihumanist səciyyə daşıyan qloballaşma, milli və dini münaqişələr və bütün bunların nəticəsində cəmiyyətdə intihar, qətl və mənəvi durğunluq meyllərinin artması faktiki olaraq əsrin əvvəllərindən başlayaraq öz əsərlərində mənəvi böhranları öz əsərlərinin aparıcı mövzusuna çevirmiş sənətkarların, o cümlədən Hermann Hessenin (1877-1962) yaradıcılığı xüsusi aktuallıq kəsb edir: bu böyük sənətkar bizə çağdaş insanın məruz qaldığı böhranın səbəblərini açıqlamağa yardım edir. Onun demək olar ki, bütün əsərlərində bu və ya digər şəkildə öz bədii əksini tapmış kütlənin dağıdıcı qüvvəsinə qarşı fərdin gücsüzlüyü mövzusu yenidən tədqiqat predmeti olaraq ictimai və ədəbi maraq kəsb etməyə başlayır. İnsan və onun cəmiyyətdə tutduğu mövqe, cəmiyyətlə fərd arasında cazıbə və itələmə qüvvəsinin dərəcəsi, meşşanlıq və intellekt arasında mövcud olan ziddiyyət hələ də maraq dairəsindədir. “İnsan ruhunun gizli həyatı, şüur və şüuraltının problemləri sözsüz ki, müxtəlif

ölkə alimlərini cəlb edib və edəcəkdir” [1] Hessenin bu səpkidə yazdığı əsərlərdə oxucu özünü yenidən tapır, qəhrəmanın ağrı və arzularını özününkü hesab edir. Çünki Hesse yaradıcılığı hər bir insana fərdi qaydada ünvanlanmış bir bədii nümunədir. Məhz bu səbəbdən Azərbaycan oxucusu üçün bir qədər çətin və yad olan böyük alman yazıçısı və mütəfəkkiri Hessenin yaradıcılığında insan problemini araşdırmaq xüsusi ilə gərəkli və səmərəli görünür. Çünki Hesse yazıçı olmaqla bərabər, həm də qərb-şərq fəlsəfi düşüncəsi sintezinin ədəbi-bədii fikirdə yaradıcısı və hər zaman zəmanənin durğun hala gətirdiyi insanın nəbzini duya bilən dahi bir psixoanalitikdir. Ədəbiyyatda “insan” kateqoriyalarının tədqiqi barədə fəlsəfi prinsiplər praktiki olaraq mühüm, lakin Hessenin fikrincə subyektdə əsas olan onu başqa subyektlərlə birləşdirən xassə yox, əksinə, onu digərlərindən fərqləndirən cəhətlərdir.[2]

*Tədqiqatın obyekti.* Dissertasiyanın obyektini Hessenin “Yalquzaq” (1927) və “Muncuq oyunu”(1943) romanları təşkil edir.

*Tədqiqatın predmeti.* Tədqiqatın predmetini Hessenin son dövr yaradıcılığında, yəni 1926-1947-ci illərdə cəmiyyətdəki psixoloji böhranın təhlili, cəmiyyətlə fərdin qarşılıqlı ziddiyyətli münasibətlərindən doğan özgələşmə və insan problemi təşkil edir.

*Mövzunun işlənməsi.* H.Hessenin yaradıcılığı onun yaradıcılıq yoluna qədəm qoyduğu dövrdən bəri tədqiqatçıların diqqətini cəlb etmişdir. O, rəvayətçilik və utopiyaya üstünlük verməkdə tənqid edilmiş (Q.Erdman), eyni zamanda ilk yaradıcılıq addımları təqdir olunmuşdur (H.Viqand, T.Hoys). Onun yaradıcılığı T.Mann, İ.Bexer kimi söz ustadları tərəfindən yüksək qiymətləndirilmiş, bir çox ədəbi mükafatlara, habelə 1946-cı ildə “Muncuq oyunu”na görə Nobel mükafatına layiq görülmüşdür.Onun haqqında ilk böyük tədqiqat işı 1927-ci ildə H.Ball tərəfindən həyata keçirilmiş, lakin bu araşdırma daha çox avtobioqrafik və təsviri xarakter daşımış, yalnız H.Hessenin həyatının tədqiqi ilə məhdudlaşmışdır. Bu səpkidə işlər M.Folker, B.Seller, Z.Unseld, E.Middell tərəfindən də aparılmış, yazıçının gündəlikləri və səxsi məktubları çap edilmişdir.

---

[1] Калина Н.Ф., Тимощук И.Г.Основы юнгианского анализа сновидений. М.: Рефл-бук, Ваклер,1997, с. 9

[2] Выготский Л.С. Психология искусства. Минск: Современное слово, 1998, с. 3

Psixoanalitik təlimin yazıçının yaradıcılığında inikas xüsusiyyətləri mövzusunda M.Dahrendorf, T.Leary, S.Palmer, O.Seydlin, V.S.Yudov, L.V.Szabo, E.Minkus, J.Jacobi, G.Baumann, T.Ans, X.İ.Şnayder., R.Probst, A.Vitolo, V.Wehdekingin işlərini göstərmək olar. M.Mecocci Hesse nəsrində qadın obrazlarının özünəməxsus təcəssüm xüsusiyyətlərini üzə çıxarmağa cəhd göstərmişdir.

İkinci Dünya Müharibəsindən sonra ilk böyük tədqiqat işi Amerika ədəbiyyatşünası T.Sialkovskinin 1965-ci ildə capdan çıxmış ”The novels of Hermann Hesse. A study in theme and structure» kitabı sayılır. Həmçinin H.J.Liithnin, M.Boulbynin əsərləri bu sahədə mühüm tədqiqat işləri sayılır. C.Volpel Hesse fəlsəfəsinin alman gənclərində buraxdığı izi tədqiq etmişdir.

70-ci illərdən başlayaraq Hesse yaradıcılığı post-sovet ədəbiyyatşünaslarının da tədqiqat obyektinə çevrilmış və V.D.Sedelnik, A.Q.Berezina, N.S.Leytes, N.S.Pavlova, R.Q.Karalaşvili, A.E.Qutmanıs, A.E.Ploxarskiy, Y.O.Quterman, Q.S.Xutsişvili, L.N.Ketsba, V.N.Paşiqarov tərəfindən müxtəlif aspektlərdən araşdırılmışdır.

Azərbaycanda .H.Quliyev, S.Ə.Cəbrayılova Hesse yaradıcılığına müəyyən məqamlarda toxunmuş, V.Hacıyev “Yalquzaq” və Ç.Qurbanlı “Knulp” romanlarını Azərbaycan dilinə tərcümə etmişlər.

XXI əsrdə də sənətkarın yaradıcılığı Rusiya hesseşünaslarından O.A.Lazutkina, N.İ,Yurikova, E.Y.Mamonova, Q.V.Romanova, N.A.Bloxina, V.V.Malaşenko tərəfindən müxtəlif aspektlərdən tədqiq edilmişdir.

XX əsrin ortalarında holland alimi Hoyzinqa bəşər mədəniyyətinin oyun fenomeni nəticəsində təşəkkül tapması fərziyyəsini ortaya qoymuş, bu problem həmçinin L.S.Vıqotski, A.Qulıqa, L.Stoloviç, M.Epştayn, E.Fink, Q.Q.Qadamer, D.B.Elkonin, J.Delyoz və eyni zamanda yuxarıda adı çəkilmiş V.V.Malaşenko tərəfindən araşdırılmışdır. Biz də öz tədqiqatımızda bu problemə toxunmağa cəhd göstərmişik.

Şərq (taosizm) fəlsəfə və dininin Hesseyə təsiri ilk dəfə ətraflı şəkildə Lee İnn-Unq tərəfindən araşdırılmış, R.Pannvits, A.Hsia, U.Chi, L.Veijian, Ch.Cellner, V.Ganeshan, D.Künzel də bu mövzuya toxunmuşlar. M.Ponzi, R.Freedman, R.Koester, F.Brusniak, M.Fumaqali Hesse yaradıcılığı barədə məqalələr yazmışlar. Ümumilikdə dissesertasiyada insan konsepsiyası və psixologizm mövzusunda İ.Ö.Vəliyev, N.A.Paşayeva, S.ŞHəsənova və S.Salahlı, M.Qocayev, B.Ananyev, N.A.Berdyayev, S.Q.Boçarov və

ədəbiyyat siyahısında qeyd olunmuş bir sıra digər mənbələrdən yararlanılmışdır.

*Tədqiqatın məqsəd və vəzifələri.* Tədqiqatın əsas məqsədi Hessenin son dövr yaradıcılığında (1926-1947) insan konsepsiyasını sistemli araşdırmaqdır. Bu məqsəd məntiqi tədqiqatın aşağıdakı vəzifələrinin həll olunmasını tələb edir:

- Hesse yaradıcılığında insan konsepsiyasının qoyuluşunun, sənətkarın insan təliminin, bəşəri xüsusiyyətlərinin özünəməxsusluğunun araşdırılması;
- Hessenin bioqrafiyasının onun bədii yaradıcılığına birbaşa əlaqəsini və təsirinin göstərilməsi;
- Qərb fəlsəfəsi və qədim şərq təlimlərinin Hesse nəsrində öz əksini tapması xüsusiyyətlərinin araşdırması, bunun əsasında insan konsepsiyası və onun fəlsəfi-psixoloji mahiyyətini, dini-siyasi atmosferdə təsnifinin verilməsi, Hesse yaradıcılığında insan-ətraf mühit münasibətlərinin siyasi, fəlsəfi və bədii çeşidlərinin təhlil edilməsi;
- kamil insan probleminin qoyuluşunda və həllində Hesse ədəbi-fəlsəfi fikrinin özünəməxsus xüsusiyyərlərinin göstərilməsi;
- faşizm ideologiyası dövründə kütlə psixologiyası, fərd – şəxsiyyət – cəmiyyət probleminin həllindəki mühüm cəhətlərinin araşdırılması, bu problemin Hesse nəsrindəki xüsusiyyətlərinin şərh edilməsi;
- psixoanalitik təlimin Hesse yaradıcılığına təsirinin tədqiq edilməsi.

*Tədqiqat metodu.* Dissertasiya işində biz H.Hessenin yaradıcılığında insan konsepsiyasını kifayət qədər geniş konteksdə təhlil etməyə cəhd göstərmişik. Bu, hər şeydən əvvəl H.Hessenin əsərlərində son dərəcə müxtəlif və rəngarəng elmi-fəlsəfi bilgilərdən istifadə etməsi ilə, onun yaradıcılığının XX əsr alman bədii düşüncə tərzi ilə üzvi vəhdətdə olması ilə bağlıdır. Yeri gəldikcə biz Hessenin insan konsepsiyasını bugünkü fərdin, xüsusilə azərbaycanlıların üz-üzə gəldiyi problemləri kontekstində işıqlandırmağa cəhd göstərmişik. Deyilənlər tədqiqatda tipoloji-müqayisəli metodun prinsiplərindən istifadə olunmasını şərtləndirən əsas amildir.

*Tədqiqatın elmi yeniliyi.* Hessenin “Yalquzaq” romanını yazmasından 84 il, “Muncuq oyunu” əsərini yazmasından 70 il keçir. Lakin bu əsərlər öz təravət və aktuallıqlarını saxlamışlar. Bu hər şeydən əvvəl onunla bağlıdır ki, hər yeni oxucu nəsli yaşadığı dövrdən və milli mənəviyyatından asılı olaraq, görkəmli sənətkarın əsərini tamamilə “yenidən”, əvvəlki dövrlər üçün tamamilə gözlənilməz olan kontekstdən oxuyur. Bu baxımdan postsovet məkanında yaşayan insanların bir çox səciyyəvi cəhətlərini

birləşdirən azərbaycanlı insanın problemlərinin Hessenin insan konsepsiyası işığında təhlil etmək xüsusi əhəmiyyət kəsb edir. XXI əsrin əvvəllərinin gerçəkliyi baxımından sənətkarın yaradıcılığında insan konsepsiyasının araşdırılması onun əsərlərində mövcud olan, lakin yalnız indiki dövrdə özünü tam şəkildə büruzə verən fəlsəfi-etik potensialın üzə çıxarılmasına, digər tərəfdən yeni ictimai durumun, bugünkü insanın üz-üzə gəldiyi problemlərin Hesse yaradıcılığı işığında dəyərləndirilməsinə imkan verir. Bu dissertasiya işini bu vaxta kimi aparılmış tədqiqatlardan fərqləndirən əsas elmi yenilikdir.

Bir qayda olaraq olaraq klassik ədəbiyyatda "kiçik insan" obrazı "fağır", lakin eyni azmanda humanist fərd kimi tədqiq olunur. Bu baxımdan Qoqolun və Dostoyevskinin bir sıra əsərlərinin qəhrəmanlarını, C.Məmmədquluzadənin Məmmədhəsən əmi ("Danabaş kəndinin əhvalatları") obrazını yada salmaq kifayətdir. Z.Freydin və K.Yunqun psixoanalitik təliminin prinsiplərindən yaradıcı şəkildə istifadə edən və XX əsrin gerçəkliyindən çıxış edən Hesse "kiçik insan"ın son dərəcə mürəkkəb və ziddiyyətli aləmə malik olduğunu, onda "fağırlıq"la "qəddarlığ"ın çulğalaşıb üzvi vəhdət təşkil etdiyini sübuta yetirmişdir. Müəyyən səbəblərə görə Hesseyə həsr olunmuş tədqiqatlarda kifayət qədər işıqlandırılmamış bu problem dissertasiya işində ətraflı şəkildə təhlil olunur. Tədqiqatda XX əsrdə bütün görkəmli sənətkarların yaradıcılığında öz əksini tapmış, Hesse tərəfindən özünəməxsus şəkildə işıqlandırılmış, lakin müəyyən səbəblər üzündən bəzi aspektləri tədqiqatçıların diqqət mərkəzindən kənarda qalmış fərd-kütlə münasibətləri geniş təhlil olunmuşdur. Tədqiqatda həmçinin bir qayda olaraq F.Dostoyevskinin adı ilə bağlı olan polifonizmin ədəbi prosesin yeni inkişaf mərhələsində Hesse tərəfindən inkişaf etdirilməsi sübuta yetirilmişdir. Bütün bu məqamlar dissertasiya işinin elmi yeniliyi hesab oluna bilərlər.

*Müdafiəyə çıxarılan əsas müddəalar:*

1) Hesse yaradıcılığının artıq ilk çağlarında ədəbi-bədii söz sənətinin aparıcı mövzusu insan fenomeninə fərqli prinsiplər əsasında yanaşmış və xx əsrdə fərdin üzləşdiyi əsas problemləri ehtiva edən insan konsepsiyası yaratmışdır. Bu konsepsiya "Yalquzaq" və "Muncuq oyunu" romanlarında özünün ən yüksək bədii və hərtərəfli təcəssümünü tapmışdır;

2) sənətkarın bütün yaradıcılığında, xüsusilə "Muncuq oyunu" romanında insan konsepsiyası şərq və qərb düşüncə tərzinin, dünyagörüşü mövqeyinin sintezi şəklində formalaşmış və universal bəşəri keyfiyyətlər əxz etmişdir;

3) Hessenin yaradıcılığında XIX əsrin sonu – XX əsrin əvvəllərində insanın dərin böhranı və onun özgələşməsi ilə bağlı ədəbi fikirdə yaranan dekadent və modernist meyllər, habelə Kyerkeqor, Şopenhauer, Berqson kimi filosofların əsərlərində insanın ekzistensial problemləri ilə bağlı özünü büruzə verən pessimist əhval-ruhiyyə və eyni zamanda bu ovqatın dəf olunması bədii inikasını tapmışdı;

4) Hesse keçən əsrin 30-cu illərində baş qaldıran antihumanist faşizm ideologiyasına qarşı ardıcıl və kəskin ifşaedici mövzudan çıxış etmişdir. Bu mövqe sənətkarın "Muncuq oyunu" romanında hərtərəfli şəkildə ifadə olunmuşdu;

5) "Yalquzaq" və "Muncuq oyunu" romanlarında insan konsepsiyası bu əsərlərin bədii bütövlüyünü təmin edən əsas amildir: bu romanlarda çox zaman əks qütblərdə duran personajlar məntiqi cəhətdən bir-birini tamamladığı və oxucuda XX əsrin ziddiyyətli və mürəkkəb gerçəkliyi haqqında bütöv təsəvvür yaradılır.

*Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.* Hessenin yaradıcılığının psixologizm problemi ətrafında hərtərəfli öyrənilməsi eyni zamanda Avropa və Almaniya ədəbiyyat tarixinin bu mürəkkəb mərhələsinin araşdırılmasında nəzəri və təcrübi önəm kəsb edir. Bu baxımdan tədqiqat ədəbiyyat nəzəriyyəsi və XX əsr qərb ədəbiyyatı tarixinin tədqiq və tədris olunmasında istifadə oluna bilər.

Tədqiqatdan müasir alman ədəbiyyatı, ədəbiyyat tarixi fənlərinin, habelə XX əsr narratologiyası ilə bağlı xüsusi kursların tədrisində də istifadə oluna bilər.

*İşin fərziyyəsi.* Ümumbəşəri, eləcə də alman sosial-fəlsəfi düşüncə modelindən bəhrələnmək, milli düşüncə kontekstinə əsaslanmaqla gerçək sosial həyatın və insan modelinin əsaslarını müəyyənləşdirməklə Herman Hessenin mövqeyini düzgün və real şəkildə dərk etmək olar.

Tarixin bütün dövrlərində sosial həyat, məslək-ideya, əxlaqi görüşlər və insan problemi ədəbiyyatla sıx bağlı olmuşdur. İctimai və ədəbi fikir səhnəsinə daxil olan Herman Hessenin yaradıcılığında psixologizm və insan problemi müasir zamanın aktuallıq, ciddi elmi əhəmiyyət kəsb edən məsələsidir.

*İşin aprobasiyası.* "Herman Hessenin yaradıcılığında insan konsepsiyası ("Yalquzaq" və "Muncuq oyunu" əsərləri əsasında)" mövzusunda tədqiqat Azərbaycan Dillər Universitetinin "Xarici ölkələr ədəbiyyatı" kafedrasında yerinə yetirilmiş, kafedrada müzakirə

olunmuşdur. Dissertasiya üzrə beş məqalə, o cümlədən xaricdə bir məqalə və iki tezis çap olunmuşdur.

*Tədqiqatın quruluşu.*Tədqiqat giriş, iki fəsil, nəticə və istifadə olunmuş elmi ədəbiyyatın siyahısından ibarətdir

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilir, onun işlənmə dərəcəsi, aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın "XX əsrin əvvəllərində sosial kataklizmlər və "Yalquzaq" romanında insan konsepsiyası" adlı birinci fəsli üç bölmədən ibarətdir. "*Fəlakətli xarici aləm və insanın daxili aləmi"* adlı birinci bölmədə XX əsrin əvvəllərində ictimai- mənəvi atmosferdə baş verən köklü dəyişikliklərin humanitar fikirdə, o cümlədən bədii ədəbiyyatda şüuraltı proseslərə oyatdığı maraq tədqiq edilir. Təsadüfi deyildir ki, bu dövrdə yeni idealist fəlsəfi təlimlər (A.Berqson) yaranır və XIX əsrdə formalaşmış təlimlərə (Şopenhauer, Kyerkeqor) maraq yenidən canlanırdı.

XX əsrin əvvəllərində Nitşe fəlsəfəsi qərb düşüncə tərzinin formalaşmasında əlahiddə rol oynamışdır. "Ziqmund Freyd və Fridrix Nitsşe XX yüzil Qərb modernizminin, bütün avanqard sənət cərəyanlarının peyğəmbəridir" desək yanılmarıq[1]. Dövrün bir sıra ziyalıları kimi Hessenin də dünyagörüş mövqeyi Nitşe fəlsəfəsinin, onun fövqəlbəşər konsepsiyasının həlledici təsiri altında formalaşırdı.

Yeni ictimai durum ədəbiyyatda yeni qəhrəmanlar yaranmasına səbəb oldu. Bu yeni qəhrəman cəmiyyəti dəyişmək üçün fəal həyat mövqeyindən çıxış etmir. Onun daxili didişmələri əslində yazıçının cəmiyyətlə etdiyi mübahisələridir. Bütün bunlar XIX-XX əsr insanının düşüncə, özünüdərk və qavrayış tərzinin dəyişməsinin təzahürü idilər, yəni dünyanın yeni durumunu yeni insanın adekvat şəkildə təsvir edilməsi idi. Özgələşmə prosesinin dərinləşməsi insanın cəmiyyət adlı maşının dilsiz-ağılsız, passiv detalına çevrilməsinə, "yuxarıdan" verilən əmrlərə tabe olmasına gətirib çıxarırdı. Yeri gəlmişkən, XX əsrin əvvəllərində yenidən, "neopozivitizm" qismində gündəmə gəlmiş fəlsəfi konsepsiya bu meyli təqdir edirdi. Özünü cəmiyyətdə tapa bilməyən fərdin özgələşməsi getdikcə daha da dərinləşir. Insan özü ilə ətraf aləm arasında bir "özgələşmə" hiss edir. Bu baxımdan,

[1] www.http://kultaz.com/2009/05/31/adil-mirseyid-modernizminnatomiyasi/

alman mütəfəkkiri M.Haydeqqerin[1] insana baxışı çox maraqlıdır. Onun fikrincə, bəşəriyyətin texniki asılılığı onu məhvə aparır, antihumanizm meyllərini gücləndirir. Ekzistensializm həm fəlsəfi, həm də ədəbi-bədii konsepsiya kimi cəmiyyətlə fərd arasında yaranmış uçurumun mahiyyətinə nəzər salmağa imkan yaradır. Ümumiyyətlə Hessenin yaradıcılığında müasir bəşəriyyətin ortaya qoyduğu önəmli problemlərin həllində xəstələnmiş mühit və cəmiyyətdə insan problemi və xüsusilə cəmiyyət və fərd münasibətləri qırmızı bir xətlə keçir. Cəmiyyətin eybəcərliklərini görən, onunla mübarizə etmək iqtidarında olmayan insan sonda ya bu eybəcərliyə uyğunlaşaraq onunla bir yaşayır, ya da cəmiyyətdə ağ qarğaya çevrilərək təklənir, heç kim tərəfindən başa düşülmür. Yozef Knext, Harri Haller, Narziss və başqaları buna bariz sübutdurlar. Məsələn, Harri obrazı bir neçə insanın ─ Mosart, Qöte və "vəhşinin", yəni ali və aşağı düşüncənin vəhdətidir. O, burjua ziyalısıdır və bu ziyalı elmi kəşflər, inqilablar dövründə depressiyaya düşür, dəhşətə gəlir, ümidsizliyə qapılır və bu vəziyyətdən çıxış yolunu intiharda görür. İntihar edə bilmədikcə, bu vəziyyət daima təkrarlanır və sonda ona ruhən yaxın insanın qətli ilə sona çatır. Yozef Knext isə bu vaxta qədər inandığı dəyərlərin heç də ideal və kamil olmadığını, əslində puç olduğunu dərk etdikdən sonra ən ali pillədən, Magister Ludi dərəcəsindən imtina edərək həmişə yaşadığı Kastaliyanı tərk edir və ruhi müvazinətini tapmaq üçün adi insan cəmiyyəıtinə dönür. Lakin burada şagirdinin idealını doğrultmaq üçün çayda məhv olur. Lakin bütün bu ölümlərdən yeni insan, yeni fikir, yeni həyat doğur. Hermenenin ölümündən sarsılmış Harri Haller tamam yeni həyat eşqiylə "magik teatrdan" adi həyata dönür, Knext öz ölümü ilə şagirdi Titonun həyata baxışını dəyişir.Bu əhval-ruhiyyə çağdaş dövrdə universal səciyyə daşıyır: Azərbaycanın görkəmli romançısı, yazıçı Elçinin yaradıcılığının tədqiqatçısı Nərgiz Paşayeva XX əsr ədəbi fikrində geniş yayılmış insan obrazını təsadüfün nəticəsi yox, ictimai həyatdakı meyllərin qanunauyğun yekunu olmasını vurğulayır: "Danmaq olmaz ki, 50-ci illərdə qərbdə çap olunan bir çox romanlar məhz insanın tənhalığı, acizliyi və bu insanı əhatə edən dünyanın mənasızlığı üzərində qurulmuşdu. Ancaq o əsərlər də elə

---

[1] Unseld S. Hesse Werk und Wirkungsgeschichte Frankfurt am Main: SuhrkampVerlag, 1985, S. 163.

real həyatın özündən doğmuşdur, başqa bir cəmiyyətdə yaşayan insanın mənəvi dünyasını əks etdirirdi."[1]

Birinci fəslin *"H.Haller obrazında intellektualın və vəhşinin üzvi vəhdəti" yarımfəslində* haçalanmış, daha doğrusu, bir-birini inkar edən iki meylin qurbanına çevrilmiş şəxsiyyətin daxili mübarizəsindən bəhs edilir. Bu, onunla toplum arasında ziddiyyətin kəskinləşməsinə səbəb olur. Haller tədricən cəmiyyətlə təmasını itirdiyini, özgələşdiyini hiss edir. Üç əsas bölümdən ibarət olan əsərdə H.Hallerin daxili mübarizəsi real və qeyri-real elementlərin bir-birinə qarşılıqlı sirayəti fonunda təsvir edilir: hadisə real aləmdə-bir şəhərdə başlayaraq qeyri-real aləmdə "Magik teatr"da başa çatır."Naşirin ön sözü" adlı bölümdə Hallerin təzadlı həyatı və hissləri barədə yalnız şərh verlir və sonda onun xəstəliyinin kökündə zəmanənin durduğu nəticəsinə gəlinir. Hallerin şəxsiyyət problemi reallıq və təxəyyülün ziddiyyətindən, yəni Yunqun arxetipi "persona" ilə şüuraltı instikdən doğan heyvani varlığın (kölgə arxetipi) arasındakı ziddiyyətdən doğmuşdur. Hessenin qəhramanı bir tərəfdən kollektiv məxluq kimi insanlarla ünsiyyətə girməyə meyllidir, digər tərəfdən daxilindəki canavar onu ətrafı ilə dil tapmaqdan məhrum edir.Burada Hessenin yararlandığı fəlsəfi və psixoanalitik qaynaqlar özünü büruzə verir. Belə ki, *Akvitanlı Fomanın fikrincə, insan heyvanla mələk arasında yer alan bir varlıqdır...*[2]

Məhz əsərdə də belə bir nəticəyə gəlir ki, bu aralıqda yerləşən insan həm mələk, həm də heyvani xüsusiyyətlərə malik olur. Şəxsiyyətdə bu iki cəhət vəhdət təşkil etmədikdə isə, insan Harri Haller kimi ikiləşir və öz-özü ilə mübarizəyə başlayır."Harri Hallerin qeydləri" adlı ikinci bölüm Harrinin öz dilindən danışılır və Harrinin ikili təbiətinin təzadları, onun ruhi və cismani iztirabları və intihar məramı burada aydın təsvir edilir. Bu bölümün tərkib hissəsi olan "Yalquzaq haqqında traktat"-da H.Hallerin mənəvi problemləri artıq müəllifin nəzər nöqtəsindən təhlil edilir və problem ümumiləşdirilərək cəmiyyətin problemi kimi təqdim edilir: yəni *hamının yalquzaq adlandirdığı Harri adlı bir insan*[3] *gərək "commen sense"nin, demokratiyanın, meşşan maarifinin ağalıq etdiyi bir dünyada yaşamayaydı*[4], yəni o, daha yaxşı bir dünyada yaşamalıdır və bu dünya da

---

1 Paşayeva Nərgiz.Yeniləşən ədəbiyyatın yeni insanı. Bakı: ATİ, 2004, s. 49-50.

2 Vəliyev İ. Bədii ədəbiyyatda insan konsepsiyası: Filol. elm. dok. ... dis. avtoref. Bakı, 2001, s. 15.

3 H.Hesse. Yalquzaq. Bakı: Yazıçı, 1990, s. 96.

4 İbid., s. 113.

"*ölməzlərin*" dünyası *adlanmalıdır.* Bununla yazıçı Harrinin öz dövrünün siyasi və ictimai problemlərini çox ciddi dərk edərək əzab çəkdiyini göstərir.

Hesse cəmiyyətin uçuruma yuvarlanma səbəbini mənəviyyat və əxlaq itkisində görür və meşşan cəmiyyətinin durğunluqda məhv olmamasının səbəbini də paradoksal şəkildə məhz belə "yalquzaqların" mövcudluğu ilə bağlayırdı: "*... Ancaq bununla belə, meşşanlıq yaşayır, möhkəmlənir,gün-gündən çiçəklənir. Bəs niyə? Cavab belədir: ona görə ki, Yalquzaqlar var. Əslində meşşanlığın həyatverici qüvvəsi özünün normal üzvləri deyil, əksinə, həyat idealları dumanlı, sürüşkən olduğu üçün onun tərəfinə keçən saysız-hesabsız autsayderlərdir...*" [1]

Bu qeyri-normallar və autsayderlər, Hessenin təbirincə desək "dəlilər" heç də ağıldankəm insanlar deyillər, əksinə onlar cəmiyyətin adi, hamı tərəfindən qəbul edilən normalarına qarşı çıxan və öz yollarını açan xüsusi insanlardır ki, bəşəriyyətin də inkişafı məhz bu insanların üzərində qurulur. Lakin bu insanlar əksər hallarda toplumda başa düşülmür və tədricən autsayderə çevrilirlər. Harri məhz bu tipli şəxsiyyətlərdən biridir. Harrikimilər öz daxilindəki ikinci səsi "eşidib" başa düşənə qədər bu meşşan cəmiyyətində yaşayırlar. Onun eybəcərliklərini görüb dərk etdikdə isə artıq özlərini zorla bu meşşanlığın əsirinə çevrilmiş ğörür və ondan yaxa qurtara bilmirlər. Harri də bu qəbildən olan insanlardandır. O, kamilliyin elə bir dərəcəsinə çatmışdır ki, indi hər şey onun öz "mən"inə qarşı çevrilmiş və onu məhv etməyə çalışır. Təkcə Harrinin yox, digər Hesse qəhrəmanlarının özünəməxsusluğu onların həmişə tənha olmaları və ölümə doğru can atmaları ilə bağlıdır. Ölümə can atma istəyi isə onlarda tama qovuşmaq, bütovləşmək və dərk olunmaq arzusudur. Bunun izahı isə ondadır ki, Hesse qəhrəmanları intellektual qismində dünyanı dərindən qavrayır və baş verən prosesləri düzgün təhlil edirlər. Dünyanın əyər-əskikliklərini görmək və ətrafı tərəfindən anlaşılmamaq isə insanı getdikcə tənhalaşdırır, onu əhatə edən mühitindən uzaqlaşdırır. Hesse qəhrəmanlarının əksəriyyətində bu müşahidə olunur. Yalquzağın və onun problemli həyatının üzərində ikinci, daha ali və ölməz bir dünya ucalır. Onun iç dünyasından, ruhi aləmindən, incəsənətdən və "ölməzlərdən" bəhs edən "Traktat" və kitabın digər hissələri yalquzağın insanın dünya ilə harmoniya şəraitində yaşamasına imkan verən bir rahat, sakit və aydın

[1] İbid., s.104.

dünyanın yalquzağın iztirab dolu qaranlıq və narahat dünyasına qarşı qoyulmasıdır.

Birinci fəslin *"Magik teatr və insan konsepsiyası"* adlı üçüncü yarımfəslində hadisələr artıq qeyri-real aləmə keçir. "Magik teatr" romanın mistik obrazlığını inkişaf etdirməklə yanaşı, onu gerçəkliklə bağlayır. Hallerin "magik teatr"da ruhlarla, məsələn, Mosartla görüşünə Hesse böyük məna verir. Burada o, ölümlə həyat, xəyalət dünyası ilə gerçəklik arasındakı sərhəddi götürür, bir nağıl dünyası yaradaraq onu psixoanalizlə əlaqələndirir. Güzgülər zalı olan "Magik teatr"da Harri Haller öz "Eqo"-sunu (Yunq) axtararkən şüuraltısının müxtəlif simaları ilə üzləşir. Müasirliyin simvolu olan Pablo və klassikliyi təcəssüm edən Mosart, yuxularının həmsöhbəti Qöte, eləcə də Hermine əslində onun öz simalarıdır. Eyni zamanda Harri burada Pablo tərəfindən güzgü önünə gətirilir və özünün saysız-hesabsız simalarını görür. Bu otaq, güzgü əslində simvolik olaraq onun daxili dünyasının təcəssümü idi, onun ruhi müvazinətsizliyini göstərirdi. Bu qəribə qeyri-real aləmin müxtəlif adlı qapıları da Harrinin qəlbinin qapıları idi, bu isə Harrinin təbiətinin iki yox, min bir tərəfi olduunu göstərir: "...onda yaşayan qəlblərin sayı iki deyil, beş deyil-minlərlə, milyonlarladır. İnsan özü də soqan kimi qat-qatdır, parça kimi min çür sapdan toxunub."[1] "Magik teatr"da o, cəmiyyətin yaratdığı buxovları qırır, öz instinktlərinə uyğun hərəkət edir. Oxucu "magik teatr"da Harrinin şəxsiyyət psixologiyasından kütlə psixologiyasına doğru deqradasiyasının şahidi olur. Burada artıq o, düşünmək, təhlil etmək, mühakimə yürütmək keyfiyyətlərindən məhrum olur, çünki düşünən Harri real aləmdə qalmışdı: *"burada şüurlu şəxsiyyət yox olur, həm də kütlə adlandırılan, bütövü təşkil edən ayrı-ayrı vahidlərin hamısının hissləri və ideyaları eyni istiqamət alır"*[2]. "Magik teatr"da dünyaların bir-birinə qarışması xaos yaradır. O, real dünyada yaşadığı ağırlıq və ziddiyyətlərdən burada azad olur, cəmiyyətin yaratdığı buxovları itirir. Bura Harrinin öz iç dünyasının "xaosundan" keçib özünüdərkə aparan keçiddir. Çünki Hessenin fikrincə, yalnız xaos mərhələsindən keçmiş bir insan fərdi keyfiyyətlər kəsb edib şəxsiyyət kimi formalaşa bilər. Bu vaxta kimi Haller öz iç dünyasının səsi ilə söhbət edirdisə, burada o, bu səsə qulaq asır, ona uyğun hərəkət edir. Bu zaman Haller üçün həmin sərhəd itir – xeyirlə şər, yasaqla mümkün olan şey, ruh və təbiət bir-birinə qarışır, yəni, o,

---

[1] H.Hesse. Yalquzaq. Bakı: Yazıçı, 1990, s.109

[2] Qustav Le Bon "Kütlə psixologiyası. Bakı: Zəkioğlu, 2006, s. 137

ekzistensialist fəlsəfənin prinsiplərinə uyğun olaraq irrasional insana çevrilir. Burada müasirlik və kütlə psixologiyası bütün mürəkkəblikləri ilə birlikdə qarşı-qarşıya qoyulur. O, yeniyetmə illərinin temperamenti ilə hərəkət etsə də, bu hərəkətlərinin kökündə kamil Hallerin yaşadığı problemlər durur. Halleri xüsusilə cəmiyyəti didib-parçalayan mənəvi - əxlaqi aşınma problemi narahat edir. Bu, XX əsrin gerçəkliyinin tələbləri əsasında ədəbi-bədii fikirdə təcəssüm olunmuş yeni insan tipi, yeni bədii obrazdır. XX yüzilliyin özgələşmiş qəhrəmanı klassik ədəbiyyatın qəhrəmanlarından fərqli olaraq ayrı-ayrı çatışmazlıqlara qarşı deyil, zəmanənin özü ilə mübarizə aparırlar. Onlar cəmiyyətdə mənəvi böhranın, özgələşmə prosesisinin nəticəsi kimi yaranan biganəliyə, etinasızlığa və antihumanizmə qarşı vuruşurlar. Haller də bu tipli obrazlardandır. Lakin onun mübarizəsi bir qədər fərqli xarakter daşıyır. Əgər Kafkanın yaxud Kamünün qəhrəmanları aparıcı özgələşmiş fərd qismində təsvir olunurlarsa, Hessenin qəhrəmanı öz dünyasına çəkilərək iztirab çəkir. Əslində bu hərəkət də onun daxili, səssiz etirazı idi. O, bununla cəmiyyətə onun qanunları ilə yaşamaq istəmədiyini göstərmək istəyir. Magik teatr”da isə onun mübarizəsi tamam başqa bir rəng alır. Burada sabitlik yerini xaosa, humanistlik isə qəddarlığa verir. Lakin bu qəddarlıq da Hallerin fikrincə bəşəriyyətin xilası, ali humanistliyin bərqərar olması naminədir.

Ümumiyyətlə Hesse bu romanda fərdi və ictimai şüuru, onların bir-biri ilə ziddiyyətli münasibətini təsvir etmişdir. Burada müsbət və mənfi qəhrəman yoxdur, burada ümumi “insan” obrazı var. Hesse yaradıcılığında insan sabit, birmənalı varlıq yox, ruhən parçalanan, daxili narahatçılıqdan əzab çəkən, ziddiyyətli, ətrafında cərəyan edən prosesləri təhlil edən, küskün və bədbin, hiss və duyğulardan ibarət bir fərddir. Lakin əsərin ideya məzmununu Hesse özü aydın tərzdə açıqlamışdır: “Əlbəttə, mənim bu hekayətimi necə başa düşməyi əvvəlcədən oxucunun boynuna qoya bilmərəm və heç istəmirəm də. Qoy kim necə istəyir, elə də başa düşsün, nə lazımdırsa, onu da götürsün. Ancaq kaş onların çoxu görəydi ki, Yalquzağın hekayəti xəstəlikdən, böhrandan danışsa da, insanı ölümə, fəlakətə deyil, sağlamlığa, dirçəlişə doğru səsləyir.[1]

*“Muncuq oyunu” əsərində insan və cəmiyyət problemi”* adlı ikinci fəslin *“Faşizmin meydana gəlməsi və insan problem”* adlı birinci yarımfəslində Almaniyada kəskinləşən iqtisadi böhran, əhalinin orta

[1] Quliyev Q. Hesse dünyası / H.Hesse. Yalquzaq. Bakı: Yazıçı, 1990, s. 8.

təbəqəsinin həyat səviyyəsinin aşağı düşməsi, sosial təminatın zəifləməsi səbəbindən əhalidə hökumətə inamın zəifləməsi və bunun əvəzində isə güclü, avtoritar rejimə inamın güclənməsi təhlil edilir. Faşizmin genişlənərək 1933-cü ildə onun Almaniyada hakimiyyət başına gəlməsini təsadüfi hadisə və ya tarixin "ərköyünlüyü" hesab etmək olmaz; bu hərəkatın qalib gəlməsi üçün o dövrdə psixoloji və sosial şərait yetişmişdi: iqtisadi böhran, orta təbəqənin çətin sosial vəziyyəti, mənəviyyat boşluğu, incəsənətin tənəzzülü, intellektə təzyiq – bütün bunlar faşizm deyilən hərəkatın böyük sürətlə inkişaf edərək geniş kütlələr arasında vüsət almasına səbəb olmuşdu. Orta sinfin dövlətin ideologiyasını necə dərk etməsi onun iqtisadi vəziyyətindən asılı idi. Faşizmin köklərinin məhz orta təbəqədə rişə ataraq inkişaf etdiyini aydın dərk edən H.Hesse bu səbəbdən öz əsərlərində, xüsusən də "Yalquzaq" romanında tənqidi meşşan cəmiyyətinə yönəldir və bu bataqlıqdan xilas olmağa çalışan qəhrəmanının bununla belə bu cəmiyyətin buxovlarından azad olmaqda çətinlik çəkdiyini də oxucuya göstərərək problemin nə dərəcədə real olduğunu insanların diqqətinə çatdırmaq istəyir.

Faşizm cəmiyyətində "ümummilli mənafe" deyilən mücərrədləşdirilmiş ideya hər şeyi özünə tabe etmiş, bütün başqa hissləri əvəz etmiş, fərdi fikir, şəxsi mənafe, etik və mənəvi baxışlar arxa plana keçmişdi. İnsanlar ümumi ideyanın tələblərini yerinə yetirməli olan icraçılara, "vint"cıklərə çevrilmişdi. Çünki *"insan müstəqil, ağıllı, obyektiv ola bilməsi üçün əksər hallarda kifayət qədər kamilləşməmişdir. İnsan belə bir hissə dözə bilmir ki, o, özü öz öhdəsinə buraxılmışdır..., daha bunu ali bir qüvvədən gözləməli deyil. Ona görə də insanların bütlərə və miflərə ehtiyacı vardır"*[1]. Faşizmin iqtisadiyyat və siyasətlə deyil, məhz insan psixologiyası ilə bağlı olduğu ilə əlaqədar bu kimi fikirləri L.Mamford da iddia edir: *"Faşizmi iqtisadiyyatda deyil, insanın ruhunda axtarmaq lazımdır."*[2]

Burada həmçinin kütlə psixologiyasına nəzər salmaq lazımdır. Çünki faşizm də, kommunizm də özlərinin qələbəsini məhz kütlələri idarə edə bilmək qabiliyyətlərinə mahir yiyələnmələri sayəsində təmin edə

---

[1] http://rumagic.com/ru_zar/sci_philosophy/fromm/9/j1.html предисловие к 25-му изданию, с. 1.

[2] Reich Wilhelm. Die Massenpszchologie des Faschismus. Köln: Verlag Kiepenheuer@Wirtsch, 1971, 1986, S. 16.

bilmişdilər. Bu zaman kütləni təşkil edən fərdlər üçün öz şəxsi maraqları və mənfəəti elə də əhəmiyyət kəsb etmir. Ümumi məqsəd, kütləni idarə edən liderin maraqları daha öndə durur. Bu isə artıq kütlənin fərdə "yüksək dərəcədə tərbiyələndirici təsiri" deməkdir.. Hitlerin "Mənim mübarizəm" kitabında kütlələri idarə etməklə bağlı fikirləri faşizmin mahiyyətini açıq-aydın ortaya qoyur. Onun fikrincə geniş kütlə psixikası zəif və yarımçıq olan heç nəyi qəbul etmir. Kütlə də uman başçını yox, çox hökm verib idarə edə bilən rəhbəri daha çox sevir. Bu həm də ona görə mümkün ola bilirdi ki, *mühafizəkar kütlə idarə olunmağı sevir və hər cür yeniliyə nifrət edərək ənənələr qarşısında isə hədsiz sitayış hiss edir"*[1]. Tarixə nəzər salsaq Makedoniyalı İskəndər, Sezar, Napoleon, Lenin və Stalinin ugurlarının kökündə məhz xalq kütlələrinin idarə olunmaq və aldanmaq istəklərinin güclü olmasının durduğunu görərik.

Bu partiyaya qarşı müxalifətdə durmaq bütöv Almaniyaya qarşı müxalifətdə durmaq idi və əlbəttə ki, adi bir insan üçün özünü cəmiyyətdə təklənmiş hiss etməkdən və heç bir qrupa aid olmamaqdan ağır şey ola bilməz: alman vətəndaşı yalqızlıqla Almaniyanın vahidliyi arasında seçım etməyə məcbur olur və əksər insanlar bu vəhdəti seçirdilər. Bu səbəbdən düşünən və yaradan beyinlər öz cəmiyyətlərində böyük müqavimət və hiddətlə rastlaşırdılar. Herman Hesse də belə şəxsiyyətlərdən biri idi. Onun hələ Birinci Dünya Müharibəsi vaxtı " Neue Züricher Zeitung" qəzetində çap etdirdiyi "Dostlar, bu səslər lazım deyil" ("O Freunde, nicht diese Töne" sentyabr 1914) [2] məqaləsi bütün ölkələrin ziyalılarını humanizm prinsiplərinə sadiq qalmağa və birləşərək mədəniyyəti xilas etməyə çağırırdı: "*Müharibə o qədər davam edəcək ki, Qöte səltənətinin ruhu ilə yaşayan bir insan belə qalmayacaq".*[3] Bu məqalə o vaxt cəmiyyətdə çox ziddiyyətli əks-səda doğurmuşdu. Yazıçı müharibə qızdırmasına mübtəla olmuş cəmiyyətdə dərhal təcrid olunmuş vəziyyətə düşmüş və uzun illər rəsmi alman mətbuatı üçün "vətən xaini" olaraq qalmışdı. İllər sonra faşist rejimi Almaniyada bərqərar olduqda, Hesse nasional-sosialist hökuməti üçün də arzuolunmaz şəxs elan edilir.

Hessenin "Muncuq oyunu" romanını oxuduqda yazıçının cəmiyyətin probleminin köklərini son dərəcə dərindən incələdiyinin şahidi oluruq.

---

[1]Freud S. Psychologie des Unbewußten. Studienausgabe. Band 3, Frankfurt am Main: S.Fischer Verlag, 1975, s. 6.

[2] H.Hesse . Gesammelte Schriften. Suhrkamp, 1987, Bd. 7, s. 44.

[3] İbid., s. 49.

Cəmiyyət qanunlarından azad bir kastanın yaradılması, burada təhsil alacaq uşaqların ailələrindən alınıb burada yaşayıb-yaratmaları, onlar üçün hətta ən ali ustadın belə naməlum qalması demokratik yaşam tərzini necə yaratmaq barədə yazıçının arzularının etirafı idi.

*"Utopik Kastaliya cəmiyyətinin xüsusiyyətləri"* yarımfəslində qapalı bir qurum olan Kastaliya əyalətinin təlimat və prinsipləri tədqiq edilir, açıq və qapalı cəmiyyətlər arasında müqayisə aparılır, elm və incəsənətin mənəviyyatın saflığının qorunub saxlanmasındakı rolunun əhəmiyyəti nəzərə çatdırılır. "Muncuq oyunu" romanının yaranması 1930-cu ildən sonra Almaniyada formalaşmış siyasi ab-havanın inkişafı ilə bilavasitə bağlı olmuşdur. Elə əsəri oxuduqca Kastaliya üzvlərinin vəzifəsi ilə tanış olduqca bu məkan üçün seçilmiş adın təsadüfü olmadığı qənaətinə gəlirik. *"Hələ hellinist Roma epoxasında Kastaliya – Parnas çayı – poeziya və ədəbiyyat yaradıcılığının simvoluna çevrilmişdi"*[1]. Kastaliya ordeninin nizamnaməsi və qaydaları Hessenin rəvayətə görə Himalay dağlarında yerləşən Şamxala adlı əfsanəvi diyar barədə bilgiyə malik olduğundan xəbər verir. Hessenin yaratdığı Kastaliya elə bir yerdir ki, burada dünyanın bütün obrazları formalaşaraq "yaranır." Əslində yazıçı bizim dünyamızda baş verən dəhşət və müsibətlərin, böhran və mənəviyyatsızlığın kökündə məhz tükənməz arzuların, hər şeyə sahib çixmaq hisslərinin, maddi təsəvvürlərə aludəçiliyin durduğunu demək istəyir. Bu hisslərdən azad olan bir cəmiyyət həqiqətən xoşbəxt və sakit bir həyat tərzinə sahib ola bilər, ruh tarazlığına nail olar! Çünki "*incəsənət mənəvi,idraki,sosial qanunların hökmü ilə yaşaya bilməz"*[2]. Bununla Hesse Lao Tszenin müasiri və hətta hind Buddasından yaşlı olan çin müdriki Yanq Çounun fikirlərinə istinad etmişdi.Yanq Çouya görə həyatda dörd şey vardır ki, əksər insanlar bundan asılı olurlar və bu dörd şeyi hər şeydən çox arzulayırlar: bunlar uzun ömür, şan-şöhrət, rütbə, var-dövlətdir[3]. Kastaliya məktəblərinin prinsipi məhz bu dörd şeydən asılı olmayan insanlar yetişdirmək idi. Beləliklə də dünyəvi bir orden – qurum yaranır. Bu qurumun üzvləri ciddi mənəvi çevrədə yaşayaraq özlərini musiqiyə, riyaziyyata və ədəbiyyata həsr edirlər. Onlar artıq mövcud olan bütün elmlərin və mənəviyyatın sintezini qoruyub saxlamağa və mədəni irs qismində gələcək nəslə aşılamağa çalışırlar və bu mənəvi dəyərlər təşkilatının əsasını muncuq oyunu təşkil edir. Bu oyunun

---

[1] Гессе Г. Магия книги. М.: Книга, 1990, с. 214.

[2] Бердяев Н.А. О русских классиках. М.: Высшая школа, 1993, с. 328.

[3] H.Hesse. Gesammelte Schriften. Suhrkamp, 1987, Bd. 7, s. 269.

yüksək inkişaf etmiş gizli dili, öz qaydaları, qrammatikası var. Mədəniyyət və incəsənətdən əldə olunan dəyərlər toplumu bu oyunda özünü əks etdirir. Necə deyərlər oyunçuların məqsədi oynayaraq incəsənəti qorumaqdır. Bu orden dövlətin tərkibində hər şeydən təcrid olunmuş halda öz iyerarxiyasına malikdir. Kastaliyanın təsvir edilən xüsusiyyətlərini sadaladıqca, göz önündə şərq cəmiyyəti – çin qayda-qanunları canlanır. Üstəlik Hessenin heç bir əsərində "Muncuq oyunu" qədər çin fəlsəfəsinin yaşam prinsipləri təzahür etməmişlər. R.Karalaşvilinin "ikiqütblülük barədə qədim çin ideyası nəinki Hesse əsərlərinin kompoziyiyasını müəyyənləşdirir....,həm də yazıçının özünün düşüncə tərzinə xasdır"[1] fikri bu əsərdə tamamilə özünü doğruldur və bizə Hesse düşüncəsi və yaradıcılığı yollarında addımlamağa imkan verir. Kastaliya tərbiyəsinin məqsədi humanist düşüncə tərzinə malik, yüksək mənəviyyata sahib olan, şəxsi mənfəət güdməyən insan formalaşdırmaq idi ki, bu insan öz bilik və bacarığını yalnız ümumi işin xidmətinə verməli idi. Bu, yenə də Konfusi və Krişna idealı ilə səsləşir.

Muncuq oyununun əsas prinsipi onun mücərrəd səciyyəli olmasıdır. Dıqqət edilərsə, burada inkişaf dəyişməz qalmışdır, nəzərə çarpmır, ya da ki, ümumiyyətlə yoxdur, çünki bu oyun heç nə kəşf etmir.O, yalnız və yalnız meditasiyadır. Bu meditasiyanın qayəsini musiqi təşkil edir. Bu ümumilikdə bir sintez təşkil edən oyundur və bu oyunun ruhu musiqi, özü də qərb və çin musiqisinin sintezi üzərində durmuşdur. Musiqi ilə muncuq oyunu gerçəklik sahəsini tərk edir və metafizik, mistik bir məkana daxil olur. Burada gerçəklik kənarlaşıb öz yerini fövqəlgerçəkliyə verir. Hər iki dünya arasındakı körpünü meditasiya yaradır. Ruhi müvazinət isə meditasiya yolu ilə əldə edilir. Bu, buddizm möminliyi və ayinlərinin xüsusi bir formasıdır ki, çin mədəniyyəti kontekstində meydana çıxmışdır. Lakin elə əsərin özündə Kastaliya aliliyini inkar edən parçalara nəzər salaq: "*Siz riyaziyyatçilar və oyun mahirləri mənəvi tarix və incəsənət tarixindən ibarət distillə olunmuş bir dünya tarixi yaratmısınız, sizin tarixinizdə qan yoxdur, gerçəklik yoxdur; siz ikinci və üçüncü əsrlərdə latın sintaksisinin tənəzzülü barədə lap incəliklərə kimi bilirsiniz, lakin Aleksandr, Sezar və ya İisus Xrist barədə heç anlayışınız belə yoxdur.. yalnız qanun və formullar vardır, lakin gerçəklik yoxdur...,zaman yoxdur,"dünən"və "sabah" yoxdur,*

[1] Каралашвили Р.Г. Мир романа Г.Гессе, Тбилиси: Сабчота Сакартвело 1984, с. 23.

*yalnız əbədilik vardır, hamar riyazi bugün vardır"*[1] Lakin Knextin daxili ziddiyyətləri, sonda Kastaliyanı tərk etməsi onu göstərir ki, heç bir ictimai quruluşda bəşəriyyət şərdən birdəfəlik və tamamilə xilas ola bilməz, çünki insan qəlbi həmişə dəyişməz olaraq qalır, bütün anormallıqlar və günahlar məhz insan xislətinin içində, yəni insanın özündədir. İnsan ruhunun qanunları özünəməxsus və sirlidir, naməlumdur. Ona görə də hansı şəraitdə tərbiyə alsa da, insan bəşəri insan olaraq qalır.Ona görə də yüksək mənəviyyatlı ali cəmiyyət yalnız xəyal məhsulu olaraq qalacaqdır.

*İkinci fəslin "Yozef Knext və Plinio Deziqnori iki əsas dünyagörüşün daşıyıcıları kimi"adlı üçüncü yarımfəslində* Deziqnori – Knext dialoqu Şərq dünyası ilə Qərb dünyasının, Herder – Konfutsi dünyabaxışının bədii ifadəsi kimi təqdim olunur.Yozef Knext və Plinio Deziqnori iki fərqli müstəvidə qərarlaşmış obrazlardır: onlar fərqli meyarlardan və dünyagörüş mövqelərindən çıxış edirlər, müxtəlif həyat yolları ilə addımlayırlar. Lakin müəllif oxucuya bu obrazların məğzini anlatmaq və bununla da əsərin qayəsini çatdırmaq üçün müəyyən məqamlarda bu iki şəxsi görüşdürür. Daha dəqiq desək, Deziqnori də "Yalquzaq" romanında olduğu kimi Knextin ikinci yarısıdır, daxili səsinin obrazıdır.Yazıçı "müxtəlif mövqelərdə duran, müxtəlif ideyaları təbliğ edən qəhrəmanları"[2] polemik şəkildə qarşılaşdırır. Onlar iki fərqli dünyaya aid olsalar da, bir-birilərinin fikirləri onlar üçün maraq kəsb edir. Knext üçün yalnız ümumi bir məqsəd vardır. Bu da Kastaliyanın mənafeyidir. Plinio Deziqnori isə xüsusi imtiyazlı şəxs kimi burada qonaq qismində oxumaq hüququna malik idi və digər kastaliyalılardan fərqli olaraq o, təhsilini başa vurduqdan sonra buranı tərk edib geriyə qayıdacaqdı, yəni ordenə daxiı olmayacaqdı. O, maddi həyatın qanunları ilə yaşadığına görə yalnız özünü və ailəsinin mənfəətini düşünür. O, maddi həyatın nümayəndəsidir. Lakin bu, onu heç də mənfi insan etmir. Bütün "bioloji, ictimai tələblərə meyl olduğu kimi onun ruhaniyyətində də tələblər var."[3] Məhz bu tələb illər sonra Deziqnorini yenidən Kastaliyaya gətirib çıxarır.

---

[1] H.Hesse. Gesammelte Schriften: İn 7 Bd. Bd. 6, "Glasperlenspiel", Frankfurt am Main: Suhrkamp, 1987, s. 84

[2] Qocayev M. Mixail Baxtin və onun polifonik roman nəzəriyyəsi // AM.Baxtin. Dostoyevski poetikasının problemləri. Bakı: Kitab aləmi, 2005, s. 10.

[3] Abıyeva Z. Cavidin yaradıcılığında insan konsepsiyası: Filol.elml.nam. ... dis. Bakı, 1997, s. 53

Gənc Deziqnori buradakı qaydaları tənqid edərək buranın müəllim və tərbiyəçilərini kinayə ilə *"kahinlər kastası, buradakı şagirdləri isə onların müti, xədim edilmiş dindarları"*[1] adlandırırdı. Kastaliya məktəbinə bütün vücudu ilə sadiq olan Yozef bu sözləri olduqca qaba hesab etsə də, onlarda müəyyən qədər həqiqətin olduğunu dərk edir.

Yozef Knext "humanizm və universallığın daşıyıcısıdır, onun mənşəyi və məqsədi zamandan yuxarıda durur"[2]. O, Yanq Çounun ideallarını özündə cəmləmiş bir şəxsiyyətdir. Təzadlı ad seçimi də iki dünyanın – yüksək və aşağı təbəqənin-qarşıdurmasını göstərir: Knext- nökər, Deziqnori –ağa, sinyor mənasını verir. Lakin Deziqnori ruhən yüksək təbəqədən olduğunu hiss etdirsə də, düzü əyridən seçməyi bacartır. Bir tərəfdə üsyankar, dikbaş Plinio – adi dünyəvi cəmiyyətin nümayəndəsi, digər tərəfdən isə sakit, üzüyola Knext – paralel mövcud olan qapalı bir cəmiyyətin – əxlaq və ləyaqət etalonu olan quraşdirma bir cəmiyyətin nümayəndəsi kimi üz-üzə durublar. Plinionun dünyası heç də gözəl və düzgün deyildir. Yozef bu dünyanın cazibəsini gizli bir həzz hissi ilə qavradığı kimi, eyni zamanda naməlum bir şeyin qorxusu ilə təlaşa da düşürdü. Bu hər şeydən əvvəl onunla izah olunur ki, o, bu dünya barədə yalnız səthi biliyə malik idi. Adi insanların yaşayış tərzi Kastaliya həyatından tamamilə fərqlənirdi. Buradakı cəmiyyət "süni" və "quraşdırma" olsa da, daimi nəzarət, məşqlər və iyerarxiya tələb edirdi. Məhz bu cəhət Kastaliyanı qapalı cəmiyyət kimi qəbul etməyə imkan yaradır. Bu dünyanın tələbi öz üzvlərindən ona xidmət eyməyi tələb etməklə yanaşı, binayi-qədimdən mövcud olan köhnə dünyanı – dünyəvi cəmiyyəti qəbul etmək, ona qara yaxmamaq, ona qətiyyən nifrət etməmək və eyni zamanda da bu dünyaya niskil və istəklə boylanmamaq idi. Kastaliya yalnız az qism insan üçün bir dünya və cəmiyyət olaraq açıq idi.

Burada maraqlı bir cəhət əsərdə Yozef Knextin mütamadi olaraq üzbəüz qaldığı şəxslərlə polemikalarıdır: Ustad – Knext, Deziqnori – Knext, pater Yakob - Knext, Böyük Qardaş – Knext. Bu dialoqlar Knextin ruhi-mənəvi kamilləşmə yolunun pillələridir. Bu insanların Deziqnoridən fərqli olaraq maddi dünya ilə heç bir bağlılıqları yoxdur. Ona görə də onlar həyatda heç bir inkişaf axtarmırlar və maddiliyin onların

---

[1] Г.Гессе. Игра в бисер. Золотой фонд мировой литературы. М.: АСТ, 2004, с. 278.

[2] N.Paşayeva. Yeniləşən ədəbiyyatın yeni insanı. Bakı: ATİ, 2004, s. 48.

dünyasını məhdudlaşdırdığını hesab edirlər. Lakin fani olan insan həmişə bu maddiliyə can atdığından bir çox bəlalarla üzləşir. Onların fikrincə insanı məhz bu meyldən azad etmək lazımdır: "*məhdudlaşdırılmış qəlb maddi xoşbəxtlikdən təkrarən həzz almaq istəyir. Beləliklə, o, çeynənmiş şeyi bir daha çeynəyir. Lakin bəzən bu cür həzz alan insan böyük canla ünsiuyyət sayəsində maddi dolanışıqlıqdan azad olunur.*"[1] Burada "böyük can" dedikdə Tanrı nəzərdə tutulur. Lakin Kastaliya sakinləri dindar deyildilər. Tanrı onların nəzərində bütövlük, tamlıq demək idi və insan bu tamlığa qovuşanda kamilliyin yüksək pilləsinə çatmış olur. Hesse qəhrəmanları da məhz bu tamlığa can atırlar. "Yalquzaq" romanında ölümə can atan Harri də və bu ölümə qovuşan Knext də bu dünyadan qurtulmaq yox, məhz həmin o bütövlüyə çatmaq istəyirdi.

Apardığımız tədqiqatdan aşağıdakı nəticələrə gəlmişik:

1) H.Hessenin XX əsrin birinci yarısında "Yalquzaq" və "Muncuq oyunu" romanları onun yaradıcılığında və dünya ədəbiyyatında əhəmiyyətli yer tuturlar. "Azadlığa" can atan və onun mahiyyətini dərk etmək istəyən insan mövzusu yazıçının yaradıcılığının leytmotividir;

2) yazıçının bütün ömrü boyu tədricən formalaşan, "Yalquzaq" və "Muncuq oyunu" romanlarında yüksək bədii-fəlsəfi ifadəsini tapmış insan konsepsiyası XX əsrdə bəşər övladının rastlaşdığı bütün köklü problemləri ehtiva edir. Bu konsepsiyanın təkrarolunmazlığı onun insanı didib-parçalayan daxili ziddiyyətlərini əks etməklə yanaşı onun yorulmadan bu ziddiyyətləri dəf etməsinin və son nəticə etibarilə mənən qalib gəlməsini təcəssüm etməsi ilə bağlıdır;

3) romanda öz ifadəsini tapmış zahiri dialoq daxili dialoqla ayrılmaz şəkildə bağlıdır və əsərdə müəllifin qarşısına qoyduğu bir sıra problemlər bu zidd dialoqlar kontekstində öz bədii həllini tapır;

4) Hessenin tədqiqata cəlb olunmuş iki əsəri yalnız ideya məzmunu baxımından, yəni vahid insan konsepsiyasından çıxış etməsinə görə deyil, həmçinin yaxın təhkiyə prinsiplərinə söykənməsi ilə diqqəti cəlb edir. Bununla müəllif özünün vahid insan konsepsiyasının vahid bədii vasitələr sistemi ilə ifadə etməyə nail olur;

5) Kastaliyada "könüllü" təcridolunma bir tərəfdən müəllifin ideal cəmiyyət haqqında utopik təsəvvürlərinin, digər tərəfdən dövrün ictimai durumunun bədii əksidir;

---

[1] Bhaktivedanta svami Prabhupada A.Ç. Bhaqavad-Qita olduğu kimi. Sidney: Bhaktivedanta Buk Trast, 1991, s. 698

6) Hessenin insan konsepsiyası ideal cəmiyyətin "normal" fərdlərin toplumu kimi formalaşması ilə bağlı XX əsr humanitar fikrində kök salmış ideyanı alt-üst edir;

7) Şərq və Qərb düşüncə tərzini vahid insan konsepsiyasında birləşdirən Hesse bəşəriyyətin bütövlüyünü onun mədəni rəngarəngliyinin əsasında birləşməsi ilə bağlayırdı. Bu sənətkarın yüksək multikültürəl prinsiplərdən çıxış etməsinə dəlalət edir.

Tədqiqatın əsas elmi nəticələri aşağıdakı tezis bə məqalələrdə öz əksini tapmışdır:


1. XX əsrin əvvəllərində sosial kataklizmlər və "Yalquzaq" romanında insan problemi // Elmi axtarışlar. Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu. Bakı: Səda, 2005, XIV, s. 158-160
2. Hessenin "Yalquzaq" romanında Harri Haller obrazındakı təzadlar // Elmi axtarışlar. Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu. Bakı: Səda, 2005, XVII, s. 21-26
3. Das "Magische Theater" und Menschenproblem // Elmi xəbərlər Bakı: ADU, 2008, № 2, s. 227-232
4. Hesse və Uzaq Şərq / "Alman dili fakültəsinin müstəqil fəaliyyətinin 60 illik yubileyi"nə həsr olunmuş elmi-praktik konfransın tezisləri. Bakı: ADU, 2010, s. 61-63
5. Влияние психоанализа на творчество германа Гессе // Казахский национальный университет им. Абая. Вестник, Серия «Филологические науки» № 2 (40), 2012, Алматы, с. 76-79
6. Herman Hessenin "Muncuq oyunu" romanında Yozef Knext və Plinio Deziqnori dünyagörüşünün ziddiyyətləri // Filologiya məsələləri. Azərbaycan Milli Elmlər Akademiyası Ədəbiyyat İnstitutu, Bakı: Elm və təhsil, 2013, № 5, s.343-347
7. Herman Hessenin "Muncuq oyunu" romanında Kastaliya ordeninin xüsusiyyətləri / "Germanistikanın aktual problemləri"nə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları. Bakı: ADU, 2012, s. 106-109
8. Гессе и Восток // Таврический Национальный Университет им. В.И.Вернадского. Ученые записки Филология. Социальные коммуникации. Т. 26 (65). Симферeполь, 2013, № 2, с. 506-511.

Нилуфар Бахлул гызы Мамедзаде

# КОНЦЕПЦИЯ ЧЕЛОВЕКА В ТВОРЧЕСТВЕ ГЕРМАНА ГЕССЕ
(на основе романов «Степной волк» и «Игра в бисер»)

## Резюме

Настоящая диссертация посвящена исследованию человеческой концепции в творчестве великого немецкого писателя Г.Гессе на основе его романах «Степной волк» и «Игра в бисер», а также анализу становления и развития философской мысли Гессе.

Во введении обосновывается актуальность темы, определяются цели и задачи исследования, дается информация о научной новизне, теоретической и практической значимости, методах и источниках работы, а также о ее апробации и структуре.

В первой главе исследования, названной «Социальные катаклизмы в начале XX века и концепция человека в романе «Степной волк», воссоздается общая картина катастрофических процессов в обществе, заменивших друг друга, их влияние на человеческую психику, его чувства и образ мышления, и подробно анализируется их характеристика в лице Гарри Галлера. «Магический театр» представлен в романе не только как место воплощения противоречивого характера Гарри Галлера во всех его оттенках, но и как место, где рассматривается все настроение цивилизации XX века в метафорическом плане. В этой главе также уделяется внимание философской сущности проблемы человека, теме самопознания человека и поиска себя.

Во второй главе диссертации «Проблема человека и общества в романе «Игра в бисер» анализируется приход фашизма в 1933 году к власти, рассматриваются психологические причины падения немецкого народа в омут фашизма и реакция писателя на этот процесс в романе «Игра в бисер». Как известно, утопическое общество Касталии, созданное Гессе в романе «Игра в бисер», является продолжением и развитием многовековых идей западной культуры в связи с созданием идеального общества.

В заключении диссертации обобщаются основные положения исследования.

Nilufar Bahlul Mammadzada

# CONCEPT OF HUMANITY IN HERMANN HESSE'S OEUVRE
(on the basis of "Steppenwolf" *and* "The Glass Bead Game" novels)

## Summary

The present thesis is devoted to the study of human concepts in the works of the great German writer H. Hesse based on his novels "Steppenwolf" and "The Glass Bead Game", where the formation and development of philosophical thought Hesse are discussed.
In the introduction the relevance of the topic, defining the goals and objectives of the study, provides information about the scientific novelty, theoretical and practical significance, methods and sources of work, as well as approbation and structure of the research are provided.
In the first chapter of the study, titled "Social upheavals of the early twentieth century and the concept of a person in the novel" Steppenwolf "recreates the overall picture of catastrophic processes in society, replacing each other, their impact on the human psyche, his feelings and way of thinking, and a detailed analysis of their response in the face of Harry Haller. We also discuss the "Magic Theatre" presented in the novel not only as a place of implementation of the controversial nature of Harry Haller in all its shades, but also as a place where civilization is considered the mood of the twentieth century in a metaphorical sense. This chapter also focuses on the philosophical essence of the problem of man, the theme of self-discovery and search for a person.
In the second chapter of the thesis (The problem of man and society in the novel "The Glass Bead Game") examines the arrival of fascism to power in 1933 and discusses the psychological reasons for the fall of the German people into the maelstrom of fascism and reaction of the writer on this process in the novel "The Glass Bead Game". As it is known, a utopian society of Castalia, which was created in Hesse's novel "The Glass Bead Game", is a continuation and development of age-old ideas of Western culture, in connection with the creation of an ideal society.
In conclusion, the thesis summarizes the main points of the study.

Çapa imzalanıb: 14.10.2014
Format: 60x84 1/16. Tiraj: 100.  Sifariş № 26.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
Tel./faks  596 21 44
*e-mail:* *mutarjim@mail.ru*

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

НИЛУФАР БАХЛУЛ гызы МАМЕДЗАДЕ

# КОНЦЕПЦИЯ ЧЕЛОВЕКА В ТВОРЧЕСТВЕ ГЕРМАНА ГЕССЕ
(на основе романов «Степной волк» и «Игра в бисер»)

5718.01 – Мировая литература (немецкая литература)

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по филологии

Баку – 2014